BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№4* *Sosial-siyasi elmlər seriyası* *2008*

# MƏNLİK ŞÜURU VƏ AZADLIQ

**Q.V.ALLAHVERDİYEV**
*Naxçıvan Dövlət Universiteti*

Müasir dövrün sosial praktikası və idrakı, mənlik şüuru və azadlıq anlayışlarında, habelə onların qarşılıqlı münasibətlərində mühüm keyfiyyət yenilikləri yaradır ki, bu da onların ümumiləşdirilməsi və fəlsəfi mənalandırılmasını çox zəruri edir.

Qeyd olunmalıdır ki, mənlik şüuru anlayışı fəlsəfi psixoloji ədəbiyyatda birmənalı şərh olunmur. Bu xeyli dərəcədə onun özünəməxsus təbiəti və mürəkkəbliyi ilə izah edilməlidir. Sözügedən anlayışın spesifik təbiətə malik olduğunu qeyd edərək A.V.Skvortsov yazır: «Mənlik şüuru xarici aləmin qanunauyğunluqları və xassələri haqqında, insanın öz fiziki və psixoloji keyfiyyətləri haqqında bilikləri ilə eyni olmayan, xüsusi tipli hadisədir. Bu onun düzgün izahında ciddi çətinlik yaradır» (7, s. 14).

Müasir fəlsəfi ədəbiyyatda mənlik şüuruna verilən müxtəlif təriflər içərisində A.Q.Spirkinin tərifi, fikrimizcə, daha uğurludur. «Mənlik şüuru insanın öz hərəkətlərini, hisslərini, fikirlərini, davranışının motivlərini, mənafelərini və cəmiyyətdə yerini başa düşməsi deməkdir» (8, s.387).

Göründüyü kimi, burada həmin anlayışın başlıca keyfiyyətini təşkil edən subyektin öz daxili aləminə yönəlməsi və çoxsaylı psixi hadisələrlə sıx bağlılığı diqqət mərkəzinə çəkilir. Daxili məzmununa görə son dərəcə geniş olan mənlik şüurunda «orqanizmin xarici obyektləri qavraması ilə bağlı cəhətlərdən tutmuş, öz daxili vəziyyətini ifadə edən müxtəlif hisslərin məcmuu əhatə olunur» (10, s. 14-15).

Qeyd olunan əlamətlərinə görə mənlik şüuru, şüurun digər növlərindən (predmet şüuru və yaşantılardan) fərqlənir. Onun özünəməxsusluğu həm də bundadır ki, «insanın, onu əhatə edən bütün ətraf aləmdən fərqli olduğunun başa düşülməsi kimi çıxış edir» (3, s.115).

Psixoloji ədəbiyyatda mənlik şüuru çox vaxt «Mən» konsepsiyası ilə eyniləşdirilir və göstərilir ki, o, fərdin inamlarının, qiymətvermənin və davranış meylləri də daxil olmaqla özü haqqında bütün təsəvvürlərinin məcmuunu əhatə edir (2, s.66).

Bu fikirlə razılaşmaq olar. Belə ki, insanın «Mən»i mənlik şüurunun əsas göstəricisi olmaqla, hər şeydən əvvəl şüurun subyekti, inteqral bütövlükdə götürülən psixi hadisələr kimi çıxış edir.

İ.Kant «Mən» haqqında təsəvvürləri yüksək qiymətləndirərək, onun insanı digər əşyalardan və heyvanlardan fərqləndirərək şəxsiyyət etdiyini vurğulayırdı. O, mənlik şüurunu mənəviyyatın və əxlaqi məsuliyyətin zəruri ilkin şərti hesab edirdi (4,s.357).

Buradan aydın olur ki, mənlik şüuru öz əhatə dairəsinə görə qnoseoloji problematikanın hüdudlarından kənara çıxaraq, sosial,

mənəvi və aksioloji məna kəsb edir. Bu onun azadlıq ilə münasibətlərdə olmasını şərtləndirir.

Mənlik şüuru öz daşıyıcıları baxımından yekcins deyildir, yəni o təkcə fərdə deyil, həm də sosial qrupa, sinfə və bütövlükdə cəmiyyətə aid olur. Subyektin mənlik şüuru onun öz ümumi maraqlarını və ideallarını başa düşməsi və onları həyata keçirmək uğrunda mübarizə aparması deməkdir.

Azadlıq öz mahiyyətinə görə yalnız insana məxsus keyfiyyət olub, onun sosial xarakterini ifadə edir. İnsanın cəmiyyətdə azad seçimi, hərəkətləri və fəaliyyəti digər insanlarla ayrılmaz əlaqədə olduğu üçün, insan onların maraqlarını da mütləq nəzərə almalıdır (bəzən öz hissləri və istəklərini güzəştə getmək yolu ilə olsa da).

Mənlik şüuru ilə azadlığın əlaqələri onların məntiqi anlamının əsaslarından qaynaqlanır. Bunu ondan görmək olar ki, hər hansı bir obyekt barəsindəki biliklər ona məxsus olan xassələr ilə şərtlənir, bu mənada o azad deyildir. Ondan fərqli olaraq mənlik şüuru xeyli dərəcədə azaddır, çünki burada subyekt biliyi öz məqsədlərinə müvafiq surətdə dəyişilmiş şəkildə, yəni azad, sərbəst surətdə ifadə edə bilir. Əlbəttə, mənlik şüurunun qeyd olunan azadlığı mütləq mənada və ya qərəzli subyektiv inikas kimi başa düşülməməlidir.

Cəmiyyətin ayrıca insana münasibətdə qoyduğu tələblərin başa düşülməsi, öz ictimai borcunu və həyatının mənasını anlaması, tapşırılan iş üçün kollektiv, millət, vətən və ümumilikdə bəşəriyyət qarşısında məsuliyyətin dərk olunması, mənlik şüurunun daxili məzmununda aparıcı yer tutur. Qeyd olunanlar həm də insan azadlığının ayrılmaz xassələridir.

Deyilənlərlə yanaşı, mənlik şüurunun mühüm tərəfini təşkil edən özünənəzarət, özünütənqid, özünütəkmilləşdirmə və özünütərbiyə məqamları da onun azadlıqla yaxınlığını mümkün və zəruri edir.

Mənlik şüuru ilə azadlığın münasibətlərində aşağıdakı prinsip ilkin çıxış nöqtəsi rolunu oynayır: insanın azadlığı bir çox cəhətdən onun mənlik şüurunun mahiyyətindən irəli gəlir, digər tərəfdən, fərdin azadlığı onun mənlik şüurunun əsasını təşkil edir.

Mənlik şüuru mücərrəd nəzəri prinsiplərlə daha çox bağlı olduğundan, burada fərdin varlığının onu əhatə edən xarici mühit və cəmiyyət ilə əlaqələrinin və öz mahiyyətinin dərindən dərki baş verir. Şəxsiyyətin belə adekvat özünüdərki onun qarşısında duran praktiki vəzifələri azad həll edən subyekt kimi formalaşmasının zəruri şərtidir. Məsələ burasındadır ki, bu və ya digər insan özünün adi gündəlik fəaliyyətində bəzən düzgün olmayan seçim edir, öz maraqlarının kollektivin və ümuminin maraqları ilə uzlaşmasına məhəl qoymur, davranışında vaxtı keçmiş sosial, etnik, milli və sair stereotipləri əsas götürür. Şəxsiyyətin bu və digər analoji nöqsanlardan azad olması üçün onun öz həyat şəraitini və vəziyyətini anlaması, ləyaqətinin yüksəlməsinə kömək edən prinsiplərin işlənib hazırlanması, özünütənqid və düzgün özünüqiymətləndirmə qabiliyyəti, ideal təsəvvürlər ilə real varlığı düzgün əlaqələndirə bilmək məharəti tələb olunur. Bütün bu keyfiyyətlər onun mənlik şüuru çərçivəsində formalaşır.

Mənlik şüuru həm də yaradıcılıq və məsuliyyət kimi müsbət sosial keyfiyyətlərlə sıx bağlıdır. Həmin xassələrə malik olan insan isə öz hərəkətləri və fəaliyyətinin xarici mühitdən və təsirlərdən mexaniki surətdə asılı olduğunu qəbul edə bilmir. Həmin obyektiv amillər çərçivəsində sərbəstliyini və daxili azadlığını da nümayiş etdirir.

Subyeкtin mənliк şüuru özü haqqında maliк olduğu biliкlər və informasiya ehtiyatı ilə daha sıx bağlı olduğundan, onun azadlıq ilə ümumi əlaqələri də birinci növbədə idraкı azadlıq, dərкetmə azadlığı fazasında aşкara çıxır. Bu, onunla izah edilir кi, mənliк şüurunda xüsusi növdən olan biliкlər, yəni biliyin və şüurun özü haqqında informasiya əsas yer tutur. Mənliк şüuru, yalnız insana xas olan spesifiк fundamental кeyfiyyət olub, insanın öz daxili aləmini və varlığını dərкetmənin obyeкtinə çevirir.

Məsələ burasındadır кi, insan müasir mürəккəb texniкanın, yüкsəк sürətlə əməliyyat aparan EHM-ın fəaliyyət prinsipləri haqqında daim genişlənən biliкlər ehtiyatına maliкdir. Laкin bu biliкlər insanda onun özü haqqında, sosial mahiyyəti, şüuru, hərəкətləri və hisslərinə dair obyeкtiv informasiyanı əvəz edə bilmir. Əкsinə, birinci yönümdən olan biliк ehtiyatları nə qədər çox genişlənirsə, iкinci növ biliкlərə, yəni mənliк şüuruna yiyələnməк tələbatı da bir o qədər artır.

Subyeкtin daxili «Mən»ində öz mərкəzləşmiş ifadəsini tapan mənliк şüuru həm də onun subyeкtiv azadlığının çıxış nöqtəsini təşкil edir. Bu məqamın vurğulanması ona görə vacibdir кi, məhz subyeкtiv azadlıq «Mən»in, sözün əsl mənasında, özünəinamını, özyəqinliyini ifadə edir, yəni o bütün qərarlarını və hərəкətlərini daxilindən gələn motivlər və istəкlərə arxalanmaqla qəbul edir. Bu halda fərd öz həyat fəaliyyətini başqalarının rəyi və verdiyi qiymətlər üzrə deyil, daxili inamı, özmüəyyənliyi əsasında qurur. O, öz reallığının mənasını özünü azad müəyyənetmədə görür. Sözügedən azadlığın səviyyəsi isə təbiidir кi, hamıda eyni olmur, subyeкtin mənliк şüurunda qərarlaşmış кeyfiyyətlərdən asılı olaraq müxtəlif şəкildə təzahür edir. Deməli, mənliк şüuru sosial, mənəvi və intelleкtual baxımdan nə qədər yüкsəкdirsə, onun daşıyıcısı olan subyeкtin etdiyi seçim, qəbul etdiyi qərar və real fəaliyyəti də bir o qədər azad olur.

Bu halda şəxsiyyətin özünəinamı və özündən razılığı yeni yüкsəк məzmunla tamamlanır, yəni subyeкtiv özünüqiymətləndirmə meylindən кənara çıxaraq, insanın daxili həyatının mənası və amalı ilə üst-üstə düşməyə başlayır. Fərd öz hərəкətlərini həm də digər insanların fəaliyyətlərinin nəticələri ilə müqayisə edərəк ümumi və daha obyeкtiv meyarlar üzrə qiymətləndirir. Bu, mahiyyət etibarılə şəxsiyyətin azad özünümüəyyənləşdirməsini ifadə edir, çünкi burada digər insanların və cəmiyyətin maraqları üzvi surətdə əlaqələndirilir.

Mənliк şüuru sözün geniş mənasında götürülən sosial özünümüəyyənləşdirməyə güclü müsbət təsir göstərir. Sonuncu anlayış həcminə görə çox geniş olub, özündə müxtəlif tərəfləri – onun peşə seçimini, dünyagörüşü axtarışlarını, həyat amalının müəyyənləşdirilməsini, dəyərlər oriyentasiyasını, subyeкtin fəal şəxsi mövqeyini və digər mənəvi-əxlaqi кeyfiyyətləri əhatə edərəк, onun azadlıq şüurunu və real azad fəaliyyətini şərtləndirir (5, s.333-335).

Deyilənlər sübut edir кi, mənliк şüurunun spesifiк кeyfiyyəti кimi çıxış edən özünümüəyyənləşdirmə, onun azadlıq ilə qarşılıqlı münasibətlərinin çox vacib məqamını əкs etdirir.

Nəzərdə tutulmalıdır кi, mənliк şüuru bir yerdə dayanıb durmur, subyeкtin əldə etdiyi yeni biliкlər, sosial təcrübə və mənəvi кeyfiyyətlər əsasında daim dəyişilir, daha yetкin və müкəmməl səviyyəyə yüкsəlir. Bu prosesdə həm də mənliк şüurunda əvvəllərdə mövcud olan nöqsanlar və çatışmazlıqlar tədricən aradan qalxır, onun sosial və mənəvi dəyərlərə düzgün oriyentasiyası güclənir. Həmin məqam da, öz

növbəsində, mənlik şüurunun azad xarakterinə sürətləndirici təsir göstərir. Belə ki, subyekt öz keyfiyyətlərini, mənəvi səviyyəsini və qabiliyyətlərini nə dərəcədə adekvat qiymətləndirməyi bacarırsa, onun azad seçimi və fəaliyyəti də bir o qədər yüksək olur.

Mənlik şüurunun azadlıqla münasibətlərinin ümumi əsası bundadır ki, onların hər ikisi sırf fərdi çərçivə ilə məhdudlaşmır, digər insanlarla və ümumilikdə cəmiyyətlə əlaqələri də əhatə edir. Digər tərəfdən, mənlik şüurunun reallaşması iradə vasitəsilə baş verir, iradə isə azadlıqla sıx bağlıdır. Əslində mənlik şüurunun real səviyyəsi və inkişaf dinamikası insanın öz fəal hərəkətlərinə şüurlu münasibətinin göstəricisidir. Məhz ondan çıxış etməklə, fərd müəyyən konkret şəraitdə mövcud olan alternativlər arasında azad seçim edə bilir. Bu halda onun azad iradəsi obyektiv şərait ilə subyektiv keyfiyyətlərin bütöv bir kompleksinin (mənlik şüurunun) üzvi əlaqələndirilməsini həyata keçirir.

İradə azadlığı bütövlükdə şüurun, xüsusilə də mənlik şüurunun çox mühüm və ayrılmaz tərəfidir. Əslində o şüurun praktiki reallaşdırılması formasıdır. Belə ki, iradə azadlığı bir qayda olaraq insanın azad seçimə əsaslanan fəaliyyətində özünü göstərir. Bu mənada A.Q.Spirkinin aşağıdakı fikri ilə razılaşmaq olar: «Şüur və iradə azadlığı bir-birilə sıx əlaqəli hadisələrdir: şüurun səviyyəsi nə qədər yüksəkdirsə, iradə də bir o qədər azad olur» (8, s.287).

İradə insan şüurunun ən fəal tərəfidir. Buna görə də, onun azadlığı insanın dəyişdirici aktiv fəaliyyətinin əsasında durur. Bu mənada fəlsəfi ədəbiyyatda irəli sürülən aşağıdakı fikrə haqq qazandırmaq olar: «Mənlik şüurunun spesifikliyi bundadır ki, o insanın iradəsinin, onun ideal adını öz həyatında reallaşdırmaq qabiliyyətinin əsasıdır. Beləliklə də o, mənlik şüurunun prinsiplərinin insanın azad fəaliyyətinin təşkilinin, onun seçim istiqamətinin müəyyənləşdirməsinin ilkin şərti kimi çıxış edir» (7, s.287).

İradə azadlığının mənlik şüuru ilə sıx əlaqəsi həm də bu məqamda təzahür edir ki, o insanın təkcə təbiət üzərində ağalığını, ictimai münasibətləri dəyişdirmək qüdrətini deyil, həm də özü üzərində (instinktləri, hissləri və istəkləri) hakim olmasını əhatə edir.

Deyilənlərdən bir daha aydın olur ki, sosial subyekt növünün (fərd, kollektiv, sosial qrup, millət və ümumilikdə cəmiyyət) mənlik şüuru nə qədər yüksəkdirsə, onun iradə azadlığı və azad seçimi də bir o qədər geniş olur. Bu onunla izah edilir ki, mənlik şüurunun yüksəlməsi insanın biliklərinin, idrakı imkanlarının çoxalması deməkdir, sonuncu keyfiyyətlər isə azad seçimin və fəaliyyətin çox mühüm göstəriciləridir.

Mənlik şüuru ilə azadlıq arasında əlaqələrdə həm də məqsəd mühüm rol oynayır. Belə ki, mənlik şüuru səviyyəsində subyektin məqsədi daha dəqiq, aydın və real şəraitə daha uyğun olur. Mənlik şüuru yüksək olan insan daim ona çalışır ki, kənar təbii və sosial amilləri öz məqsədinə uyğunlaşdırsın, onlardan öz məqsədinə çatmaq üçün maksimum istifadə etsin. Başqa sözlə deyilsə, subyekt həmin amillərin öz varlığı üçün daha çox pozitiv məna kəsb etməsinə cəhd göstərir. Bu yönümdə olan təşəbbüslər həm də subyektin azadlığının inkişafı deməkdir.

Əslində azadlıq insanın öz müstəqilliyini təmin edə bilən şərait yaratmağa səy göstərməsi deməkdir. Bu mənada insan, onun fəaliyyətinin xarici mühitini ifadə edən amilləri öz daxili məqsədi ilə əlaqələndirə bilməsi səviyyəsi onun azadlığının real göstəricisi kimi çıxış edir. Digər tərəfdən, mənlik şüuru, şüurun başqa səviyyələri ilə

müqayisədə məqsədə daha çox daxili yönüm verməsi ilə səciyyələnir. Bu keyfiyyət isə subyektin real hərəkəti ilə çox yaxın olub, onun mühüm amili rolunu oynayır. Qeyd olunan baxımdan mənlik şüurunda ifadə olunan məqsəd insanın həyat yolunu müəyyənləşdirir, onun müxtəlif alternativ variantlar arasında azad seçim edə bilməsini asanlaşdırır. Öz növbəsində hər bir azad seçim eyni zamanda insanın özünün özünə münasibətinin müəyyən formasını, yəni mənlik şüurunu əks etdirir. Azad seçim nə qədər çox sərbəst və daxili motivlər üzrə baş verirsə, bu forma da ona uyğun surətdə zənginləşir. Deməli, təkcə mənlik şüuru azadlığa təsir etmir, həm də azadlıq mənlik şüurunun inkişafında mühüm yer tutur, yəni onların əlaqələri qarşılıqlı xarakter daşıyır.

Mənlik şüuru ilə azadlığın qarşılıqlı əlaqələri mexanizmində insanlığı ifadə edən ümumbəşəri universal prinsiplər müstəsna yer tutur. Söhbət insanın nəsli mahiyyətinin başlıca göstəriciləri olan həyatın mənasının ən yüksək nemət kimi qəbul olunması, ədalət, sosial dəyərlərin düzgün mənalandırılması və sair prinsiplərdən gedir.

Mənlik şüurunun əsasını təşkil edən universal prinsiplər sırasında birinci yerdə həyatın mənasının ən ali nemət kimi anlaşılması durur. Öz mahiyyəti etibarilə insansevərlik, humanizmi ifadə etdiyi üçün böyük mənəvi-əxlaqi əhəmiyyətə malikdir. Bu qəbildən olan keyfiyyətləri və özünün onları nə dərəcədə yerinə yetirdiyini düzgün qiymətləndirməyi bacaran fərd, digər insanlar ilə münasibətlərini də həmin əsaslar üzərində qurmağa cəhd göstərir. Bu, isə öz növbəsində, bir tərəfdən insanın özünəhörmət və şəxsi ləyaqət hissinin yüksəlməsini, digər tərəfdən isə öz azad seçimində başqalarının maraqlarını mümkün qədər daha çox nəzərə almasını stimullaşdırır.

Beləliklə, həyatın mənasının düzgün anlaşılması insanın sosial mahiyyətini ifadə edən çox mühüm meyardır. Ona əsaslanmaqla, insanın mənlik şüuru səviyyəsi, mənəvi yetkinlik dərəcəsi, ümumi ləyaqəti və azadlığı haqqında mühakimə yürütmək olar. Məsələyə qeyd olunan səpkidə yanaşdıqda ədalət prinsipi də çox mühümdür. Əslində bu prinsip bu və ya digər fərdə münasibətdə digər insanların və bütövlükdə cəmiyyətin nə dərəcədə adekvat münasibət bəslədiklərinin meyarı kimi çıxış edir. Ədalət prinsipinin digər zəruri tərəfi subyektin öz əməyi ilə ümumi işə verdiyi töhfənin düzgün müəyyənləşdirilməsidir. Qeyd olunan hər iki tərəf qarşılıqlı təsirdə çıxış edərək, bu prinsipin fərdi və sosial mənlik şüurunun real məqamına çevrilməsinə, ictimai münasibətlərin tənzimedicisi kimi onun rolunun gücləndirilməsinə xidmət edir. Hər bir cəmiyyətdə onun həyata keçirilməsi səviyyəsi, real ədalətin təmin edilməsi göstəriciləri cəmiyyətin və şəxsiyyətin azadlığının mühüm müəyyənedici amillərindən biri kimi çıxış edir.

Onlarla yanaşı, sosial dəyərlərin adekvat anlaşılması da vacib olub, insanın həyat nemətlərini obyektiv qiymətləndirməsinə kömək edir. Nəticədə onun həyat oriyentasiyası və mənlik şüuru müsbət istiqamətdə yeniləşir. Şəxsiyyətin mənəvi yüksəlişi, onun ictimai borcunu, şəxsi ləyaqətini və azadlığını anlaması dərinləşir. Bütün bunlar isə onun daxili mənliyinin əsaslı transformasiyası, mənəvi kamilliyinin artması ilə müşayiət olunur.

Təhlil göstərir ki, bu prinsiplər insanların mənlik şüurunun real məqamlarına çevrildiyi dərəcədə, fəaliyyətlərini istiqamətləndirən daxili qüvvə rolunu oynadığı səviyyədə azad seçimi və fəaliyyəti şərtləndirən güclü amillər kimi çıxış edirlər.

Məsələ həm də bundadır ki, insanın daxili sosial mahiyyətini ifadə edən azadlıq ictimai həyatda bir çox müxtəlif (bəzən də bir-birinə zidd) nəticələrə gətirib çıxara bilir. Mənlik şüuru ümumi əxlaqı imperativlərə əsaslandıqda, insanlar arasındakı münasibətlərdə azadlığın törədə biləcəyi qarmaqarışıqlığın və xaosun qarşısını vaxtında almaq mümkün olur. Çünki, mənlik şüuru insanın başqaları ilə əlaqələrində onun özünə pis gələn hərəkətlərdən çəkinməsini nəzərdə tutur.

Azadlığın (xüsusilə də onun pozitiv formasının) əsasında duran iki başlıca prinsipdən biri obyektiv şəraiti düzgün əks etdirən biliklər sisteminə malik olmaqdırsa, digəri mənlik şüuru, onun səviyyəsidir. Sonuncu müvafiq həyat şəraitində insanın azad davranış xəttinin müəyyən olunmasında öz təcəssümünü tapır. Mövcud şəraitin xarakteri və xüsusiyyətləri, onun özünəməxsus formada həyata keçirilməsini şərtləndirir. İnsan öz həyat məqsədini, fəaliyyət istiqamətini və hətta konkret hərəkətlərini müəyyən edərkən ümumilikdə cəmiyyətin və bütövlükdə bəşəriyyətin qəbul etmiş olduğu sosial və əxlaqi prinsiplərdən çıxış edir. Bu onun azadlığı üçün bir növ start meydanı rolunu oynayır. Sözügedən prinsiplər insanın nəsli mahiyyətinə xas olan mənəviyyat ilə zəkanın vəhdətinə əsaslanır. Buradan da onun mənlik şüurunun praktiki azad yönümlülüyü irəli gəlir. Diqqəti çəkən digər məqam budur ki, insanların fəaliyyət formalarının son dərəcə müxtəlif olmasına baxmayaraq onların mənlik şüurunun və azadlığının bünövrəsini təşkil edən əsas prinsiplər hamı üçün eyni olub, universal xarakterə malikdir. Onların mənlik şüuru müstəvisində hər hansı maddi mülahizələrdən, partikulyar maraqlardan və fayda əldə etmək məqsədindən yüksəkdə durur.

Məşhur fransız filosofu C.Batay qeyd edir ki, insan son dərəcə özünəməxsus varlıqdır. O, öz qüvvələrini reallaşdırmaqda yaranan çətinliklərdən törəyən daimi qüssə və əldə etdiyi qələbələrdən, nailiyyətlərdən, fikirlərindən və ideyalarından irəli gələn daxili narazılıq hissi keçirir (1, s.73).

Mənlik şüuru azadlıq ilə vəhdətdə çıxış edərək, insanın onu ömrü boyu müşayiət edən bu qəm yükündən yaxa qurtarmasına, özünü mümkün qədər daha dolğun reallaşdıra bilməsinə və beləliklə özü-özündən narazılığının azalmasına kömək edir.

Mənlik şüuru ilə azadlığın vəhdəti, həm də onların hər ikisinin gələcəyə yönümlü keyfiyyətində təzahür edir. Bu o deməkdir ki, insanın fəaliyyəti və onu istiqamətləndirən mühüm determinant – mənlik şüuru təkcə keçmişi və bu günkü vəziyyəti əks etdirməklə kifayətlənmir, həm də gələcəyə doğru yönəlir. Eynilə də azadlıq insan həyatında ümumi müvafiq idealın tədricən hissə-hissə reallaşması deməkdir.

Fərd tərəfindən öz varlığının həqiqi həyat yolu seçimi problemi kimi anlaşılması mənəvi yetkinlik yolunda yeni mühüm pilləni ifadə edir. Bu yeni mənəvi durum vəziyyətinə yüksələn insan özünə obyektiv ümumbəşəri mövqedən yanaşaraq, həyatını adekvat qiymətləndirir.

Mənlik şüuru ictimai münasibətlərin spesifikliyi ilə yanaşı insanın özünün yetkinliyi ilə sıx bağlı olduğundan, cəmiyyətin maddi və mənəvi həyat fəaliyyətinin bütün sahələrində, o cümlədən azadlıq şüurunda və azad hərəkətlərdə ciddi irəliləyişləri şərtləndirir. Həmin yönümdə olan təsirin başlıca istiqamətlərindən birini azadlıqda xarici, kənar amillərin xüsusi çəkisinin tədricən azalması, onun getdikcə daha çox daxili zəminə, yəni özinkişafı üzərinə keçməsi təşkil edir. Bu prosesdə sosial

subyekt növü həm də həqiqi varlığını və bütövlükdə gerçəkliyi daha adekvat əks etdirmək baxımından mühüm irəliləyiş əldə edir.

Azadlıq ilə mənlik şüuru arasında qarşılıqlı təsirin, əlaqələrin möhkəmlənməsi onların vəhdətinin artmasına gətirib çıxarır, bu isə nəticədə yeni keyfiyyət – azad mənlik şüuru formalaşdığını ifadə edir. Sonuncu anlayış insanın mənəvi yetkinliyinin əsl yüksəliş mərhələsidir. Fəlsəfi ədəbiyyatda haqlı olaraq göstərildiyi kimi, "mənlik şüurunun azadlığı insanı irəliyə doğru aparan, onu yeni tarixi vəzifələri dərk etmək səviyyəsinə yüksəldən və onları praktiki həll etməyə mənəvi cəhətdən hazırlayan böyük mənəvi qüvvədir" (6, s.207).

Deyilənlərlə yanaşı belə bir məqam da qeyd olunmalıdır ki, azadlıq ilə əlaqələrin xarakteri və intensivliyi baxımından mənlik şüurunu əhatə edən bütün tərəflər eynimənalı deyildir. Bu münasibətdə refleksiya daha üstün yer tutur. Sonuncu anlayış insanın öz daxili mənəvi aləminin dərin qatlarına nüfuz etməsi, onun haqqında düşüncəsidir. Refleksiya mənlik şüurunun məna məkanını daha da genişləndirir və inkişaf etdirir. Belə ki, o bizi daxili özgünlüyümüzün təməlinə doğru istiqamətləndirir. Buna görə də insanın öz ruhunda və qəlbində, daxili mənəvi aləmində gedən dərin prosesləri hərtərəfli və dolğun əks etdirir. Bu missiyanı həyata keçirməkdə ona kommunikativ keyfiyyəti çox mühüm kömək edir. Başqa sözlə deyilsə, insanın refleksiyası təcrid olunmuş halda, yalnız öz hüdudları zəminində yaranmır. Bu prosesdə onun digər insanlar ilə biliklər və informasiya mübadiləsində olması, ümumilikdə bəşəriyyətin malik olduğu sivilizasiya və mədəniyyət xəzinəsinə qovuşması müstəsna rol oynayır.

Mənlik şüuru problemi hazırda geniş və kütləvi miqyas kəsb edir. Bu, cəmiyyətdə insanın öz varlığını həqiqi mənalandırması və azad seçim etməsi üçün lazımi maddi və mənəvi müqəddəm şərtlərin olması ilə şərtlənir. Digər tərəfdən, ictimai həyatın müxtəlif sahələrində (xüsusilə də iqtisadiyyat, mədəniyyət və dövlətlərarası münasibətlərdə) əvvəllərdə həqiqət kimi qəbul olunmuş bir çox müddəaların yenidən mənalandırılması prosesi ilə izah edilir. Həm də nəzərdə tutulmalıdır ki, sosial reallıqda və fərdlərin həyat tərzində fasiləsiz və ciddi dəyişikliklərin baş verdiyi indiki şəraitdə insanın adekvat özünümüəyyənləşdirməsi çətin və mürəkkəb vəzifədir. Söhbət hər şeydən əvvəl ondan gedir ki, insan ictimai və fərdi həyatda qarşısında duran problemləri həll edə bilmək üçün düzgün və azad seçim etmək qabiliyyətinə malik olmalıdır. İnsanın bu keyfiyyəti isə mənlik şüurundan kənarda deyil, onunla sıx əlaqədə və çox vaxt da çulğalaşmış vəziyyətdə özünü göstərir. Bu onunla izah edilməlidir ki, azad seçimin və fəaliyyətin özülündə duran fərdin özünümüəyyənləşdirməsi və fəaliyyət formalarını düzgün qiymətləndirməsi bacarığı mənlik şüurunda və onun inkişafı gedişində daha asan baş verir. Buna görə də yüksək mənlik şüuruna malik olan insanların həm öz-özünə, həm də başqalarına münasibətdə etdiyi hərəkətlər daha çox azad xarakter daşıması ilə səciyyələnir. Buradan aydındır ki, azadlıq kiminsə fərdi və özbaşına yaranan subyektiv keyfiyyəti olmayıb, əslində onun sosial və mənəvi məna kəsb edən potensial qüvvələrini həyata keçirməyə hazır olmaq qabiliyyətidir. Bu qabiliyyətin reallaşması subyektin mənlik şüuru ilə ayrılmaz qarşılıqlı əlaqədə baş verir.

Bu gün cəmiyyətimizdə gedən dərin iqtisadi, sosial, siyasi, mənəvi və mə-dəni tərəqqi prosesləri insanların mənlik şüuru ilə azadlığının qarşılıqlı surətdə bir-birinə yaxınlaşması və şərtləndirməsi

prosesinə sürətləndirici təsir göstərir. Totalitar rejimin qalıqlarının aradan qaldırılması və açıq cəmiyyətin əsaslarının yaradılmasına yönələn əsaslı dəyişikliklər, beynəlxalq miqyasda gedən qloballaşma və universallaşma meylləri ilə birlikdə çıxış edərək, insanların mənlik şüuru və azadlıq anlamında dərin irəliləyişlər yaradır. Onların əsas məğzini bu anlayışların hər ikisinin məzmununun daha da zənginləşməsi, onların qarşılıqlı təsirinin güclənməsi və vəhdətinin möhkəmlənməsi təşkil edir. Hazırda mənlik şüuru və azadlıq şəxsiyyətin normal həyat fəaliyyətinin zəruri tərkib hissələri kimi özünü göstərir. Bu təsadüfi olmayıb, onunla şərtlənir ki, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu vəzifələrinin mürəkkəbliliyi və genişmiqyaslılığı, insanların yüksək şüurluluğunu və azad yaradıcı aktivliyini şəxsi və ictimai maraqları uzlaşdırmaq əsasında fəaliyyətin bütün növlərində və sahələrində müstəqil və sərbəst seçim əsasında optimal qərarlar qəbul etmək və onları reallaşdırmaq qabiliyyətinə malik olmağı təkidlə tələb edir. Sosial həyatda demokratizmin tədricən möhkəmləndiyi indiki şəraitdə fikir və seçim plüralizminin genişlənməsi, rəylərin azad ifadəsi üçün açılan böyük imkanlar fonunda mənlik şüuru və azadlığın reallaşmasında müəyyən sosial normalara riayət olunması, azadlığın özintizam və məsuliyyətlə əlaqələndirilməsi son dərəcə zəruridir.

## ƏDƏBİYYAT


1. Батай Ж. Внутренний опыт. СПб. 1997.
2. Бернс Р.А. Развитие Я – концепции и воспитание. М.: 1987.
3. Губин В.Д. Философия. М.: 2005.
4. Кант И. Сочинения в 6-ти т., т.6, с. 357.
5. Кон И.С. Открытие «Я». М.: 1989.
6. Скворцов Л.В. Субъект истории и самосознание. М.: 1983.
7. Скворцов Л.В. Культура самосознания. М.: 1989.
8. Спиркин А.Г. Сознание и самосознание. М.: 1982.
9. Спиркин А.Г. Философия. М.: 2000.
10. Столин В.В. Самосознание личности. М.: 1983.

## САМОСОЗНАНИЕ И СВОБОДА

**Г.В.АЛЛАХВЕРДИЕВ**

**РЕЗЮМЕ**

В статье раскрывается сущность понятия “самосознания”, при этом определяются его связи со свободой. Подчеркивается, что самоопределение, выступающее как специфическое качество самосознания, отражает важный момент его взаимосвязи со свободой.

В статье выясняется роль и место общечеловеческих универсальных принципов, выражающих человечность, в механизме взаимосвязи самосознания и свободы.

## A SENSE OF SELF-ESTEEM AND FREEDOM

**G.V.ALLAHVERDIYEV**

**SUMMARY**

In the article the concept of self-esteem and its aspects are elucidated, at the same time its relations with freedom are determined.

It has been proved that the specific quality of self-esteem as self-determination reflects the main point of interrelationship beetween freedom.

The role and place in the mechanism of reciprocal relationship between a sense of self-esteem and freedom expressing universal principles of hymaneness are explaind in the article.